*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 sentyabr 2020-ci il № 55 (2473) Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edib. AZƏRTAC Prezident İlham Əliyevin görüşdəki çıxışından əsas məqamları təqdim edir.*



"Açığını desək, düşünürəm ki, son bir neçə il aramızda çox aşağı səviyyədə əməkdaşlıq illəri olub. Əvvəlki vaxtlarda bizim daha fəal təmaslarımız olub. Bildiyiniz kimi, mən sizin ölkənizdə rəsmi səfərdə olmuşam, Yunanıstanın iki prezidenti Azərbaycanda rəsmi səfərdə olub, Baş Nazir səfərdə olub. Lakin Yunanıstanın əvvəlki hökuməti hakimiyyətə gələndən sonra bu təmaslar dayanıb və bu, Yunanıstan hökumətinin təşəbbüsü olub. Beləliklə, hazırda bizim faktiki olaraq aktiv təmaslarımız yoxdur. Nümayəndə heyətlərinin mübadiləsi yoxdur".

"Bizim gələcəkdə əməkdaşlığımızı necə planlaşdırmaq barədə düşünməyə ehtiyacımız var. Cənab səfir, mən sizinlə açıq danışacağam. Sözsüz ki, diplomatların özlərinə məxsus ünsiyyət üslubu olur. Mən diplomatlar hazırlayan institutda təhsil almışam. Ona görə də mən diplomatik dilin nə olduğunu bilirəm. Lakin zənnimcə, yaxşı olar ki, harada olduğumuz, nə istədiyimiz və necə irəli getməyimizlə bağlı aydın anlayışa sahib olmaq üçün bir-birimizin mövqelərimizi bilək".

"Mənim sizinlə qaldırmaq istədiyim, sizin bunu digər mənbələrdən deyil, məndən eşitməyinizi istədiyim ikinci məsələ Ermənistan, Yunanıstan və Kipr arasında hərbi əməkdaşlıqla bağlı narahatlığımızdır. Bildiyiniz kimi, Ermənistan bizim ərazilərimizi işğal etmiş ölkədir. Xocalıda soyqırımı aktı törədib, bir milyon azərbaycanlını evlərindən didərgin salıb, tarixi, mədəni, dini abidələrimizi dağıdıb, işğal edilmiş ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirib, beynəlxalq hüququ pozur, BMT Təhlükəsizlik Şurasının və başqa təşkilatların qətnamələrinə əməl etmir. Yeri gəlmişkən, iki il əvvəl Avropa İttifaqı və Azərbaycan "Tərəfdaşlıq prioritetləri" adlı sənədi paraflayıblar. Orada Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını dəstəkləyir.

Başqa sözlə, Ermənistan aqressiv davranır. Dövlət sərhədində son gərginliklər Ermənistanın təxribatıdır, terror aktı törətmək üçün sonuncu cəhd zamanı təmas xəttini keçmək istəyərkən erməni zabiti saxlanılıb və o, artıq etiraf edib ki, onun qrupu bizim hərbçilərimizə və mülki şəxslərə hücum etmək məqsədi güdüb. Bir sözlə, Ermənistan Azərbaycanın düşmənidir və bu, onların qərarı olub. Sözsüz ki, Ermənistanın istənilən ölkə ilə sıx hərbi əməkdaşlığı narahatlıq doğurur. Siz yəqin ki, sərhəddə Ermənistanın təxribatından dərhal sonra Rusiyadan Ermənistana intensiv silah təchizatına bizim reaksiyamızdan xəbərdarsınız. Aktiv toqquşmalar iyulun 16-da dayandırıldı və iyulun 17-dən başlayaraq dünənə qədər, - dünən sonuncu uçuş idi, - Rusiyadan Ermənistana Xəzəryanı dövlətlərin hava məkanı vasitəsilə çoxsaylı yük reysləri həyata keçirilib. Bunu, sadəcə, sizə demirəm. Biz bu məsələni rusiyalı tərəfdaşlarımızla da qaldırmışıq ki, Ermənistanla hərbi əməkdaşlıq bizi narahat edən məsələdir. Çünki bu, Azərbaycan üçün mühüm təhdid törədir, çünki bu silahlardan istifadə edərək onlar bizim hərbçilərimizi, mülki şəxsləri öldürürlər.

Əməkdaşlığın bu üçtərəfli formatı bizi narahat edir. Əlbəttə ki, hər bir ölkə nəyi doğru düşünürsə, onu da edir. Buna görə biz bunu bloklamaq və ya istənilən şəkildə qarşısını almaq mövqeyində deyilik. Lakin hesab edirəm ki, bunun bizi narahat edən məsələ olduğunu məndən eşitməyiniz yaxşıdır və bunun niyə görə baş verdiyini mən izah etdim. Ermənistanın torpaqlarını işğal edən Azərbaycan deyil, Ermənistan Azərbaycanın ərazisini işğal edib. Bu da bütün beynəlxalq təşkilatların sənədlərində öz əksini tapıb.

Toxunmaq istədiyim sonuncu məsələ Türkiyə və Yunanıstan arasında Şərqi Aralıq dənizi regionunda bu yaxınlarda baş verən gərginlikdir. Sizə deyə bilərəm və bu sirr deyil ki, Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük. Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik, o cümlədən Şərqi Aralıq dənizində kəşfiyyat məsələsi ilə bağlı. Mən istəyirəm ki, siz bizim mövqeyimizi biləsiniz. Bu mövqe mənim göstərişimlə artıq Azərbaycan hökuməti tərəfindən rəsmi açıqlanmışdır. Sizə bir daha deyə bilərəm ki, Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir və türklər bizim qardaşlarımızdır. Beləliklə, bütün məsələlərdə biz onların yanında olacağıq.

Toxunulası bir müsbət məsələ tapmaq istəyirəm, amma əfsuslar olsun ki, tapa bilmirəm. Ola bilsin, biz ümid edirik ki, Yunanıstanın nisbətən bu yaxınlarda iqtidara gəlmiş yeni hökuməti əvvəlki hökumətin Azərbaycana qarşı siyasətini yenidən nəzərdən keçirəcək və biz təmasları bərpa edə, müsbət dinamika yaradan məsələləri müzakirə edə bilərik. Lakin əlbəttə ki, bu, Yunanıstan hökumətinin siyasəti və mövqeyindən asılı olacaq".

## Azərbaycanın Müdafiə naziri Moskvada beynəlxalq tədbirdə iştirak edəcək

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətləri və Şanxay Əməkdaşlığı Təşkilatı üzv-dövlətləri Müdafiə nazirlərinin sentyabrın 4-də keçiriləcək görüşündə iştirak etmək üçün Moskvaya yola düşəcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər sentyabrın 6-dək davam edəcək.

## Silahlı Qüvvələrə Yardım Fonduna 114 milyon manata yaxın vəsait toplanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il sentyabrın 1-dək 113 milyon 414 min 815,17 manat, 213 min 577,88 ABŞ dolları, 18 min 341 avro və 5000 rubl vəsait yığılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Azərbaycanın Müdafiə naziri Moskvada keçirilən Müdafiə nazirlərinin görüşündə iştirak edib

*Rusiya Federasiyasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov sentyabrın 4-də Moskvada keçirilən Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətləri və Şanxay Əməkdaşlığı Təşkilatı üzv dövlətləri Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edib.*




İclasda çıxış edən general-polkovnik Zakir Həsənov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzun illərdir davam etdiyini, bunun nəticəsində bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün düşdüyünü görüş iştirakçılarının diqqətinə çatdırıb.

Azərbaycanın Müdafiə naziri vurğulayıb ki, ərazilərimizin 20 faizinin MDB-nin üzvü olan bir dövlət tərəfindən işğalı faktı beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən bu Birliyin normalarına və ruhuna ziddir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ermənistan tərəfinin Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi genişmiqyaslı təxribatın regional təhlükəsizliyə təhdid yaratdığını qeyd edən Müdafiə naziri, eyni zamanda, rəsmi Yerevanın Azərbaycanla MDB-yə üzv olan dövlətlər arasında münasibətlərə xələl gətirmək məqsədi güddüyünü də bildirib.

İclasın yekununda Böyük Vətən müharibəsində Qələbənin və İkinci Dünya müharibəsinin bitməsinin 75 illiyi ilə bağlı birgə bəyanat imzalanıb.

Bəyanatı imzalayan Müdafiə nazirləri bir sıra məsələlərə münasibət bildirməklə yanaşı, BMT-nin məqsəd və prinsiplərinə, qəbul edilmiş beynəlxalq hüququn normalarına, xüsusilə suverenlik və ərazi bütövlüyü prinsiplərinə sadiq qaldıqlarını təsdiq ediblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**4 sentyabr 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 57 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Əsrik Cırdaxan və Ağbulaq kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə, Yeğeqnadzor rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Bakıda Azərbaycan və Rusiya Müdafiə nazirləri müavinlərinin görüşü keçirilib



*Sentyabrın 3-də Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini Ruslan Tsalikovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Əvvəlcə qonaqlar Hərbi Dəniz Qüvvələri qərargahı qarşısında ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, ehtiramlarını ifadə ediblər.

Qonaqları salamlayan nazir müavini Azərbaycan-Rusiya əlaqələrinin qurulmasında hər iki ölkə prezidentlərinin böyük rol oynadıqlarını və bu əməkdaşlığın qarşılıqlı etimad əsasında inkişaf etdiyini vurğulayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan ilə Rusiya arasında hərbi və hərbi-texniki sahələrdə qarşılıqlı fəaliyyət məsələlərinin də müzakirə olunduğu görüşdə bu əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyi qeyd olunub.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-leytenant K.Vəliyev bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda sabitliyə ən ciddi təhlükə olaraq qalır. Bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn normaları və prinsipləri əsasında həllinə nail olunması vacibdir.

Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini R.Tsalikov da öz növbəsində vurğulayıb ki, tarixi köklərə əsaslanan əlaqələri olan ölkələrimiz strateji tərəfdaşdırlar. Bu cür görüşlərin keçirilməsi də Azərbaycan-Rusiya münasibətlərinin inkişafı baxımından mühüm rol oynayır.

Tərəflər bu günlərdə "Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində Azərbaycanda keçirilən "Dəniz kuboku" müsabiqəsinin əhəmiyyətindən danışıblar.

R.Tsalikov da ölkəmizin "Dəniz kuboku" müsabiqəsinin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə təşəkkürünü bildirib.

# Azərbaycan tankçıları "Tank biatlonu" müsabiqəsinin final mərhələsinə yüksəlib



"Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımız final mərhələsinə yüksəlib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, sentyabrın 5-də keçiriləcək final mərhələsində Azərbaycan tankçıları Rusiya, Çin və Belarus komandaları ilə yarışacaq.

# "Dəniz kuboku" müsabiqəsinə yekun vurulub

"Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsinə yekun vurulub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iştirakçı ölkələrin hərbi dənizçiləri Xəzər dənizinin döyüş hazırlığı poliqonunda "Hava hədəfinə artilleriya atışı", "Xilasetmə vasitələrinin istifadəsi", "Gəminin lövbərə və çəlləyə durması" çalışmalarını icra ediblər.

Beynəlxalq hakimlər briqadası tərəfindən qiymətləndirmə aparılıb. Keçirilən ümumi mərhələlərin yekun nəticələrinə əsasən Azərbaycan və Rusiya hərbi dənizçiləri bərabər bal toplayaraq müsabiqənin qalibi olublar.

"Dəniz kuboku" müsabiqəsinin bağlanış mərasimi və qalib komandaların mükafatlandırma mərasimi sentyabrın 4-də keçiriləcək.

# Bakıda “Dəniz kuboku” müsabiqəsinin bağlanış mərasimi keçirilib

*"Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində Azərbaycanın ərazi sularında keçirilən "Dəniz kuboku" müsabiqəsinin sentyabrın 4-də bağlanış mərasimi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini vəzifəsini icra edən general-leytenant Nizam Osmanov, Rusiyanın Müdafiə nazirinin birinci müavini ordu generalı Ruslan Tsalikov və digər qonaqlar iştirak ediblər.

Tədbirin senari müəllifi və aparıcısı Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani tədbir iştirakçılarını salamlayıb.

"Dəniz kuboku" müsabiqəsi Təşkilat Komitəsinin sədri, general-leytenant N.Osmanov çıxış edərək müsabiqənin gedişatından və nəticələrindən danışıb.

Azərbaycan və "Dəniz kuboku" haqqında videoçarx nümayiş edildikdən sonra qalibiyyət kuboku və "Dəniz kuboku" müsabiqəsində iştirak edən komandaların dövlət bayraqları meydana gətirilib.

Qalib komandalara kubok, medallar və qiymətli hədiyyələr təqdim olunub.

Yarışda bərabər xal toplayaraq birinciliyi paylaşan Azərbaycan və Rusiyanın dövlət himnləri səsləndirilib.

Ordu generalı R.Tsalikov çıxış edərək ölkəmizin "Dəniz kuboku" müsabiqəsinin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə təşəkkürünü bildirib.




Tədbirdə yekun nitqi ilə çıxış edən general-leytenant K.Vəliyev müsabiqənin Xəzəryanı ölkələrin hərbi dənizçilərinin daha yaxından tanış olmaları, qarşılıqlı münasibətlər və əməkdaşlığın güclənməsi, hərbçilər arasında yoldaşlıq mühitinin yaranmasına xidmət etdiyini bildirib, tədbir iştirakçılarına Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriklərini çatdırıb və "Dəniz kuboku" müsabiqəsini bağlı elan edib.

*Ön xətdən reportaj*

# “Vətən üçün döyüşəcəyik, qalib gələcəyik!”

*Səhərdir. Üfüqdən yenicə boylanmaq istəyən Günəş yer üzünün hər tərəfini qızılı şəfəqlərinə bürüməkdədir. Səhərin bu erkən çağında bir-birinə bənzəməyən gözəl mənzərələri seyr edə-edə ön xəttə - zabit və əsgərlərimizin yanına gedirik.*

Ön xətdəyik. Əvvəlki illərdə də burada dəfələrlə olmuş hərbçilərimizlə görüşmüşdük. İndi bu yerlər əvvəlki çağlarından xeyli fərqlənir. Hər yer təzədən tikilib, hər şey yenidən qurulub, hər tərəf abadlaşdırılıb. Şəxsi heyətin xidmət aparması, qidalanması və istirahəti üçün hərtərəfli şərait yaradılıb. Səliqə ilə salınmış çəmənlik, bir xətt boyunca əkilmiş ağac və gül kolları Günəşin qızmar şəfəqləri altında daha gözəl, daha əsrarəngiz görsənir. Xidmət etmək həm zabitlərimiz, həm də əsgərlərimiz üçün qürurludur. Deməli, müqəddəsdir.

- Zabit və əsgərlərimiz torpaqlarımızın müdafiəsində daim ayıq-sayıq dayanır, - deyə zabit Elvin Cəfərov söhbətə başlayır. - Ərazilərimizin düşmənə nifrətini kükrədir. Əsgərlərimiz işğalı sonlandırmaq amalıyla xidmət edirlər. Doğma ocaqlarımızın düşməndən azad edilməsi bu gün biz hərbçilərin qarşısında dayanan ən müqəddəs vəzifədir. Bu müqəddəs vəzifəni Ali Baş Komandanın döyüş əmri ilə yerinə yetirəcəyik. Bölməmizin şəxsi heyəti 2016-cı ilin Aprel döyüşlərində fəal iştirak edib. Bu uğurlu əks-hücum zamanı zabit və əsgərlərimiz illərdən bəri alınmaz qala hesab edilən Lələtəpə yüksəkliyini erməni qəsbkarlarından azad etdilər. Güc və qüdrətlərinin ermənilərdən qat-qat yüksək olduğunu dünyaya göstərdilər. Zabit və əsgərlərimiz bu gün sələflərinin döyüş yollarını davam etdirəcəklər. Şəxsi heyət yaxşı bilir ki, qarşıdakı döyüşlərdə də qələbə qazanacaqlar.

Yolumuz irili-xırdalı, bir-birinə bənzəməyən dərələrin arasından keçir. Keçib getdiyimiz yerləri bizə göstərən zabit Həşim Həşimov böyük sevgi ilə deyir ki, Aprel döyüşlərində ordumuzun şəxsi heyəti rəşadət nümayiş etdirdi. “Bu savaşda fəal iştirak edən zabit və əsgərlərimiz cəsarət və hünərlə vuruşdular. Qələbə naminə, torpaqlarımızın azadlığı naminə vuruşdular. Vuruşdular ki, işğal olunan ərazilərimizi azad etsinlər. Azad etdilər də! Onların torpaq uğrunda tökdükləri qan hədər getmədi. Hərbçilərimiz Aprel döyüşlərində igidlikləri ilə tarix yazdılar. Bu adi tarix deyil, qəhrəmanlıq, cəsarət və hünər tarixidir. Gələcək nəsillər zaman-zaman bu tarixdən qəhrəmanlığı və igidliyi öyrənəcək, onların qəhrəmanlıq yollarını davam etdirəcəklər.

Maraqlı söhbət yolumuzu qısaldır.

Dərələr kimi yollar da bir-birinə bənzəmir. Bu bənzərsizlik, bu fərqlilik ovqatımıza ovqat qatır.

Əsgərlərin üz-gözündən igidlik və qəhrəmanlıq süzülür. Söhbətlərindən düşmənə nifrət, doğma yurdumuza sevgi və məhəbbət yağır. Ayağımız səngərə dəyəndə sanki qollarımızdakı güc artır. Səngər döyüşə gedən ən qısa yoldur. Bu yolda zəfər var, qalibiyyət var. Əsgərlərimiz qalibiyyət yolunun yolçularıdır.



- Vətən torpaqlarının hər qarışı müqəddəsdir. Müqəddəs olduğuna görə də onu göz bəbəyimiz kimi qoruyuruq, - deyə gizir Elnur Aslanov söhbətə başlayır. - Vətən qorunanda Vətən olur. Torpaq qorunanda ora düşmən ayağı dəymir. Səngərdən erməni işğalında olan torpaqlarımıza baxdıqca ürəyimiz intiqam hissi ilə döyünür. Sanki o torpaqlar dil açıb bizi səsləyir. Biz hərbçilər bu çağırışa səs verərək Vətən torpaqlarını azad edəcəyik. İşğal olunmuş bütün ərazilərimiz yolumuzu gözləyir. Bu, çox müqəddəs bir yoldur. Bu yol bizi qələbəyə aparır. Qürur hissi keçirirəm ki, mən də bu yolun yolçusuyam. Biz düşməndən qat-qat güclü və qüdrətliyik. Döyüş hazırlığımız, peşəkarlığımız da yüksək səviyyədədir. Biz güclüyük. Qarşıdakı döyüşlərdə qalibiyyət bizimdir. Biz xidmətimizi bu ruhda, bu ovqatda aparırıq. Xidmətimizə böyük diqqət və məsuliyyətlə yanaşırıq. Daim düşmən mövqelərində müşahidələr aparır, işğalçıları gözdən qoymuruq. Atəşkəs rejimini pozmağa cəhd göstərən qəsbkarların qarşısı qətiyyətlə alınır.

2016-cı ilin Aprel döyüşləri də, bu ilin İyul döyüşləri də təsdiqlədi ki, Azərbaycan Ordusu Ermənistan ordusundan çox güclüdür. Bu orduların mənəvi-psixoloji hazırlığının səviyyəsini müqayisə etmək mümkün deyil.

Həmsöhbətimin fikirləri reallığı ifadə edir. Onun səmimi fikirlərini səmimiyyətlə tamamlayıram:

- İşğalçı özgə torpağında döyüşürsə, onun niyyətini alt-üst etməli olan əsgər öz torpağında döyüşür. Buna görə işğalçı mənən güclü ola bilməz. Ordumuz dünyanın ən güclü orduları sırasındadır. 2018-ci ilin yayında ordumuzun 100 illiyinə həsr olunan paradda nümayiş etdirilən silahlar istifadədə olan silahların bir hissəsidir. Düşmən dərk etməli idi ki, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etməyə qadirdir, Ali Baş Komandanın döyüş əmri ilə bunu yerinə yetirəcəkdir. Bunu ordunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığı təmin edəcəkdir.

Gizir inamla əsgərlərə baxır.

Əsgərlərlə görüşüb söhbət edirik.

Əsgər Tural Səlimzadə deyir ki, ordu sıralarına böyük həvəslə gəlib. "Ordumuz üçün uğurla başa çatan Aprel döyüşləri zamanı mən orta məktəbdə oxuyurdum. Yadıma gəlir, bu uğurlu döyüşlər cəmiyyətdə böyük coşqu ilə qarşılandı. Hər gün cəbhədən uğurlu xəbərlər alınırdı. Ordumuzun gücü, qüdrəti qarşısında dayana bilməyən ermənilər ağır itkilər verərək geri çəkildi. İşğal edilən torpaqlarımız "rahat nəfəs alırdı." O günlərin cəbhə xəbərləri hamımızı sevindirirdi. Aprel döyüşlərindən bir neçə il keçəndən sonra hərbi xidmətə çağırıldım. Həmin günlər sevinc içində idim. Məni sevindirən o idi ki, Vətənə əsgər olmağa gedirdim. Elə ilk günlərdən böyük həvəslə silahların sirlərini öyrənməyə, döyüş vərdişlərinə yiyələnməyə başladım. İstəyirdim ki, silahlardan hədəfə dəqiq atəş açım. Məqsədim o idi ki, güllələrim hədəfdən yayınmasın. Qısa müddət ərzində istəyimə çatdım. Qismət elə gətirdi ki, mən Aprel döyüşlərində azad olunmuş ərazilərdə xidmət etməli oldum. Bu, mənim üçün ikiqat sevinc oldu. İndi hər gün qəhrəmanlıq və qalibiyyət rəmzinə çevrilmiş Lələtəpə yüksəkliyini uzaqdan da olsa salamlayıram. Sanki ondan güc alaraq qüvvətlənirəm. Döyüş təcrübəmiz yüksək olan biz əsgərlər bu gün Aprel döyüşlərinin zəfərlərini davam etdirməyə hazırıq".

Yüksək döyüş ovqatında olan əsgərlər Şahin Qəhrəmanov, Kamran Qasımov, Müşfiq Vəliyev, Əli Quliyev, Tacir Cəfərov, Əsgər Eyvazov və başqaları ordumuzun tarixinə yeni-yeni zəfərlər yazmağa hazır və qadir olduqlarını bildirirlər.

Əsgərlərlə yaddaqalan bu görüş və söhbətlər qarşıdakı döyüşlərdə Böyük Qələbələrə olan inamımızı daha da artırır. Səngərlərdə dayanan zabit və əsgərlərimizin igidliyi, cəsarəti ordumuzun artan güc və qüdrətindən xəbər verir. Əminik ki, erməni qəsbkarları heç vaxt bu artan gücün və qüdrətin qarşısında dayana bilməyəcək! Çünki zabit və əsgərlərimizin döyüş hazırlığı yüksəkdir, güclü və qüdrətlidirlər. Əsgərlərimiz Vətən uğrunda vuruşacaqlar, qalib gələcəklər.

"Vətən üçün döyüşəcəyik, qalib gələcəyik!" - deyənlərdən xoş təəssüratlarla ayrılırıq...

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

Döyüş hazırlığı

# “Biz Əlağa Şıxlinskinin davamçılarıyıq”

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyət döyüş hazırlığı planına əsasən dərslərə cəlb olunmuşdu. Baş leytenant Xəyal Balaşov tabeliyində olan əsgərlərə minaatanın taktiki-texniki xüsusiyyətlərini izah edirdi.*

Məşğələ bitdikdən sonra baş leytenant Xəyal Balaşov keçdiyi mövzu haqqında dedi ki, minaatan kompleksi düşmənin yüksəkliklərdə, yamaclarda, təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını məhv etmək və motoatıcı bölmələrin atəş dəstəyini təmin etmək üçün nəzərdə tutulub. “Minaatanların ən vacib xüsusiyyətləri daşınan olmaları və sürətlə atəş açmağa başlaya bilmələridir. Bu səbəbdən, toplardan fərqlənməsələr də, piyadalar tərəfindən istifadə olunurlar. Döyüşlərdə ön xətdə olan piyada bölmələrinin təcili atəş dəstəyi istəyinə artilleriya qüvvələrindən tez minaatanlar reaksiya verirlər. Minaatanların əsas döyüş sursatları: məhv etmə, işıqlandırma, duman və təlim mərmiləridir. Minaatan silah sistemlərinin ən vacib hissəsi onu istifadə edən heyətdir; çünki səmərəli minaatan atışları üçün yaxşı təlim görmüş heyət hər şeydən daha vacibdir. Buna görə də mütəmadi olaraq əsgərlərimizə təlimlər keçir, onların daha da hazırlıqlı olmalarına səy göstəririk. Şəxsi heyət onlara öyrədilənləri dərindən mənimsəyir, üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlirlər".



Ötən il "Beynəlxalq Ordu Oyunları" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin iştirakçısı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Elşən Cəfərli dedi ki, mənim üçün beynəlxalq yarışda ölkəmizi təmsil etmək şərəfli olduğu qədər də çətin idi. “Düzdür, bu, yarış idi. Ancaq 12 iştirakçı dövlət arasında 3-cü yerə layiq görülməklə artilleriyaçılarımızın dünyanın qabaqcıl ölkələrindən geridə olmadığını bütün dünyaya bir daha sübut etdik. Bunun üçün mütəmadi olaraq nəzəri və praktiki biliklərimizi artırırdıq. Çox istəyirəm ki, bu il "Beynəlxalq Ordu Oyunları" yarışlarında iştirak edən hərbçilərimiz ölkəmizi yenə layiqli təmsil etsinlər. Axı biz Əlağa Şıxlinski kimi görkəmli sərkərdənin davamçılarıyıq. Artilleriyanın nəzəri və praktiki inkişafındakı danılmaz xidmətlərinə və qazandığı qələbələrə görə ruslar ona "Artilleriyanın Allahı" deyirdilər. O, tarixin səhifələrinə öz adı ilə yanaşı, xalqımızın da adını yazdırıb. Bu gün biz də çalışırıq ki, onun adına layiqli xidmət edək. İnanıram ki, tezliklə Ali Baş Komandanımızın döyüş əmri ilə Qarabağımızı düşməndən azad edəcəyik".

- Minaatan bölməsində xidmət edirəm, - deyə əsgər Zaur Məmmədov sözünə başladı. - Gənc əsgərlərin hazırlığı müddətində mütəmadi olaraq komandirlərimizin köməkliyi ilə hərbi biliklərə yiyələndik. Artıq xalqımızın bizə olan etimadını doğrultmağa hazırıq. Tezliklə xalqımıza qələbə müjdəsini verəcəyik.

- Aprel döyüşlərində dayım da iştirak edib, - əsgər Nurdan Salahov dedi. - Dayım kimi mən də Qarabağımız uğrunda gedən döyüşlərin iştirakçısı olmaq istəyirəm. Bunun üçün hərbi bilik və vərdişlərimi baş leytenant Xəyal Balaşov kimi komandirlərimizin köməyi ilə təkmilləşdirirəm. İnanırıq ki, tezliklə xidmət müddətində əldə etdiyimiz bilikləri döyüşdə tətbiq edəcəyik.

Bölmə düşmənlə təmas xəttində yerləşsə də, burada hər cür sosial-məişət şəraitinin yaradılması nəzərimizdən qaçmır. Əsgərlərdən Elmar Abdullayev, Rüstəm Rüstəmov, Kazım Quluzadə və Anar Nuriyev də hər an işğalda olan torpaqlarımızı azad etməyə, bu yolda lazım gələrsə, canlarından belə keçməyə hazır olduqlarını dedilər.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# NATO Parlament Assambleyasının iclası keçirilib

Sentyabrın 2-də NATO Parlament Assambleyasının Müdafiə və təhlükəsizlik komitəsinin videokonfrans formatında iclası keçirilib. İclasda Azərbaycanın qurumda nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, quruma üzv və assosiativ ölkələrin nümayəndələrinin qatıldıqları onlayn iclasın gündəliyinə Rusiya və Qərbi Balkanlarla bağlı və digər məsələlər daxil edilib.

Toplantıda fransalı deputat Sedrik Perrin Rusiyada hərbi modernləşmə və NATO müttəfiqləri üçün qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib.

İclas iştirakçıları hər iki məsələ ilə bağlı fikirlərini bildirib, təkliflərini veriblər.

Müzakirələr zamanı Milli Məclisin qurumdakı nümayəndə heyətinin rəhbəri Ziyafət Əsgərov gündəlikdəki məsələlərə öz münasibətini bildirib. Çıxışında parlamentin komitə sədri COVID-19 pandemiyasının dünyada yayılmasının qarşısının alınmasında Azərbaycan Respublikasının verdiyi töhfələrdən söhbət açıb. O qeyd edib ki, pandemiyanın ilk günlərindən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır.

# Ön xətt bölmələrimiz qışa tam hazırdır



Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə yerləşən və hər bir müdafiə mövqeyi alınmaz qalaya çevrilən bölmələrində müasir əsgəri-məişət kompleksləri tikilib, şəxsi heyətin istifadəsinə verilib. Yaradılan şərait heç şübhəsiz ki, xalq-ordu birliyinin, dövlət qayğısının və nümunəvi xidmətin nəticəsidir.

Ön xətdə xidmət edən hərbi qulluqçular daha çox sayıqlığı və peşəkar döyüşçü keyfiyyətləri ilə seçilirlər. Əsgərlərimiz ayıq-sayıq döyüş növbətçiliyi aparmaqla bərabər ən çətin tapşırıqları da yerinə yetirməyə qadirdirlər.

Zirvələrdə qış daha sərt keçdiyindən birinci eşelon bölmələrimiz qışa hazırlıq tədbirləri çərçivəsində isti geyim, yanacaq, içməli su, ərzaqla, eləcə də digər zəruri ehtiyatlarla qabaqcadan və ilk növbədə tam təmin edilir. Hər bir şəraitə malik əsgəri-məişət komplekslərində isti geyim və keyfiyyətli ərzaqla təmin olunan əsgərlərimiz dövlət qayğısından və xalq-ordu birliyindən güc alaraq Vətənimizin müdafiəsində peşəkar hərbçi kimi dayanırlar.



Hərbi qulluqçulara dövlət qayğısı ordu quruculuğu işinin tərkib hissəsidir. Hər bir hərbi qulluqçu da bu diqqət və etimadı yüksək döyüş hazırlığına yiyələnməklə doğrultmağa çalışır.

Naxçıvan Muxtar Respublikasında dövlət-ordu-xalq birliyinin möhkəm təməli yaradılıb. Bunların nəticəsidir ki, dövlətin və xalqın dəstəyini üzərində hiss edən şəxsi heyətin döyüş ruhu artır.

**Baş leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

*Ön xətdə disput*

# Tarix necə varsa: Şah İsmayıl Xətai

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bütün hərbi hissələrdə ideoloji vəziyyətə xüsusi əhəmiyyət verilməlidir. Ölkəmizin tarixi - həm qədim tarixi, həm də müasir tarixi ilə əlaqədar hər əsgərdə, zabitdə dolğun təəssürat olmalıdır" tapşırığı ideoloji işin mahiyyətinə yeni yanaşmalar gətirdi. Əsgərlərin mənəvi-psixoloji hazırlığı ənənəvi üsul və vasitələrlə bir sırada əsgər təfəkkürünün əhatəli inkişafına hesablanmış metodlarla da aparılır, - polkovnik Elşad Əbilov belə deyir.*




- Belə metodlardan biri də disputlardır, - deyirəm. - Ön xətdə yerləşən hərbi hissədə əsgərlərlə fikir mübadiləsi aparmağı ölkə başçısının tapşırığının yerinə yetirilməsi baxımından gərəkli bilmişik. Polkovnik fikrimizi ideoloji işin normativ strukturu baxımından gərəkli sayır:

- Ali Baş Komandanın bu fikirləri bizə ünvanlanıb, onu biz yerinə yetirəcəyik, yəni, öyrənən əsgərlər olacaq, öyrədən zabitlər, zabitlər həm də öyrədə-öyrədə öyrənəcək. Əsgərlərin bildikləri dərinləşəcək, ictimai-siyasi dərslərdə, asudə vaxtlarda söhbətlərdə tariximiz haqqında daha əhatəli biliklər alacaqlar, Vətəndən, Azərbaycanın qədim tarixindən danışılacaq, bilgilər dinləniləcək, bəzi fikirlərə aydınlıq gətiriləcək...

Əsgərlərin əhatəsindəyəm...

İnsan təbiətə hökm göstərə bilməsə də, onun sərtliyini dözümüylə, həyat eşqiylə, yaşamın əhatələndiyi əraziyə - Vətənə sevgisiylə yumşaldır. Bu qüdrət yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan əsgərində də var - harada xidmət etməsindən asılı olmayaraq nə istidən-bürküdən gileylənir, nə də soyuqdan-sazaqdan. Səngərdə əsgərlərdən eşitmişəm: əsgər döyüş növbətçiliyini Vətən sevgisiylə qoşa aparır. Bu kəlmələri inam bilmişəm, bir də yerə-göyə sığmayan qətiyyətin, istəyin ifadəsi. "Bu amalla xidmət edənlər, əlbəttə ki, Ali Baş Komandanın döyüş əmrini Böyük Qələbəylə tamamlayacaq", - düşünmüşəm. İndi o düşüncələrim zəmanətiylə əsgərlərdən, onların komandirlərindən xalqımızın qədim tarixi haqqında eşidəcəyimiz bilgilər könlümüzü təlləndirəcək. Qürurlanacağıq ki, hərbçilərimiz qoruduqları torpağın tarixinə də bələddir. Zabit Elman Ağayev "Asudə vaxtlarda, ictimai-siyasi dərslərdə bu bilgiləri genişləndirəcəyik. Nəticə etibarilə hər bir əsgərin dolğun təəssüratı olacaqdır", - deyir və bu istəyin zəmanətiylə disputa başlayırıq...

Zabit deyir ki, orta məktəbdə də, kursant olanda da Azərbaycanın qədim və orta əsrlər tarixini öyrənməyə böyük marağım vardı. O vaxtlar oxuduqlarım indi də yadımdadı. Azərbaycanın ərazisi qədim arxeoloji abidələrlə zəngindir. Füzuli rayonunda Azıx, Xocavənd rayonunda Tağlar, Qazax rayonunda Daşsalahlı, Damcılı, Naxçıvanda Qazma mağaraları ən qədim insan məskənləridir. Yəni, Azərbaycan ən qədim sivilizasiya məskənlərindən biridir. Azıx mağarasında tapılan Azıx adamının çənə sümüyünə görə Azərbaycan ərazisi "Avropanın ən qədim sakinləri" xəritəsinə daxil edilib.

Əsgərlərin baxışlarında qəribə bir tündləşmə hiss olunur. Belə tündləşməni Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xidmət etdiyi postda döyüş növbətçiliyindən çıxmış əsgərlərin əhatəsində Salman kişinin qəhrəmanın barelyefinə pıçıldadıqlarını eşidəndə də görmüşdüm: "Mənim oğlum idin, oğul, indi xalqın oğlusan...". Onda həzin-həzin əsən yel şəhid atasının, qəhrəmanın atasının pıçıltısını uzaqlara aparmışdı. İndi əsgər Murad Musayevin dediklərini bu tündləşmənin nədən yarandığının səbəbi kimi dinləyirik:

- Torpaqlarımız da işğal olunub, tariximizin bəzi məqamları da. Ali Baş Komandanın döyüş əmriylə döyüşəcəyik, torpaqlarımızı da, tariximizi də işğaldan azad edəcəyik. Azıx mağarası da, Tağlar mağarası da işğaldan azad ediləcək.

- Siz həm də tarixi dolaşığa salmaq istəyənlərin niyyətinə qalib gələcəksiniz, - deyirəm. - Bütün ədalətsiz müharibələr məğlubiyyətə məhkumdur.

Zabit Elman Ağayev ehtiramla əsgərlərə baxır. Qürur var bu baxışlarda. Bu qürurun eynini 2016-cı ilin aprelin ortalarında Lələtəpədə də görmüşdüm. Gizir Tahir Misirxanov özünü təqdim edəndə baxışlarım komandirinin bu biçim baxışlarıyla qoşalaşmışdı.

- Atam tarixi sevirdi, Azərbaycanın tarixini xüsusilə sevirdi. Bu haqda gərəkli faktları bizə də deyirdi. Atamdan Karl Marksın Xətai ilə bağlı dediyi fikirləri də yadımdadı: "Səfəvilər xanədanının banisi Şah İsmayıl fateh idi. O, on dörd illik hakimiyyəti dövründə on dörd əyaləti fəth etmişdi" (əsgər Dəmir Nəbiyev).

- İctimai-siyasi dərslərdə Səfəvilər dövləti haqqında da müəyyən biliklər almışıq. Onu da öyrənmişik ki, Şah İsmayıl atası Şeyx Heydərin qatili olan Şirvanşah Fərrux Yasarı məğlub etdikdən sonra qoşununu tamamilə darmadağın etmək üçün onların sığındığı Gülüstan qalasını mühasirəyə alıb. Qalanın mühasirəsi uzandığı üçün böyük əmirlərindən soruşub: "Sizə Gülüstan qalasımı lazımdır, yoxsa Azərbaycan taxtımı?". Onlar sorğuya cavab olaraq "Azərbaycan taxtı" deyiblər. Yəni, Şah İsmayıl Xətai bütün tarixi şəraitlərdə, bütün hərbi vəziyyətlərdə Azərbaycanın mənafeyini düşünüb (əsgər Qüdrət Əlizadə).

- Şah İsmayıl Xətai Səfəvilər dövlətinin siyasi, ictimai, iqtisadi və mədəni inkişafında böyük işlər görmüşdü. Qüdrətli dövlət başçısı kimi, böyük sərkərdə kimi Səfəvilər dövlətinin hüdudlarını genişləndirdi. Bu, onun yüksək diplomatik bacarığının, sərkərdəlik qabiliyyətinin nəticəsi idi. Onun hakimiyyəti illərində Azərbaycanın milli mədəniyyəti də inkişaf etdirildi. Şah İsmayıl Xətai yaradıcılığa xüsusi diqqət yetirir, ana dilində yazan şairlərə də, Azərbaycan alimlərinə də, incəsənət xadimlərinə də, bütövlükdə incəsənətin, elmin inkişafına da himayədarlıq edirdi. Səfəvilər Azərbaycan dilli qüdrətli dövlət idi, dövlət müəssisələrində, orduda bütün yazışmalar bu dildə aparılırdı (zabit Ziya Kərimli).

- Şah İsmayıl Xətai həm də şair idi, Azərbaycan dilində şeirlər yazırdı. Onun "Bahariyyə" şeirini orta məktəbdə biz də oxumuşuq. Bir neçə misrası indi də yadımdadı:

*Qış getdi, yenə bahar gəldi,*
*Gül bitdi və laləzar gəldi.*
*Quşlar hamısı fəğanə düşdü,*
*Eşq odu yenə bu canə düşdü...*

Gözəl şeirdi, müəllimimiz deyirdi ki, Xətai bu şeirində həm də təbiətlə insan həyatının yaxınlığını, oxşarlığını təsvir edib (çavuş Saməddin Səmidli).

*Söz vardır kəsdirər başı,*
*Söz vardır kəsər savaşı,*
*Söz vardır ağulu aşı*
*Bal ilən edər yağ bir söz,*

Bu da Xətainin şeiridi, - deyirəm.

Saməddin fikrimi həssaslıqla, duyumlu incəliklə tamamlayır:

*Xətai, işin düşər,*
*Gəlib-gedişin düşər.*
*Dişləmə çiy loxmanı*
*Yerinə dişin düşər.*

Bu da Xətainin şeirlərindəndir. Bayatı kimi yazıb.

- Əslində, bayatıdı, - deyirəm. - Uşaqlığımda buna yaxın ruhda bir bayatı da eşitmişdim, yəni, orta əsrlərdə Ərdəbil də, Təbriz də, Dərbənd də, Çuxursəd də, Borçalı da eyni ruhun əraziləri olub. Dediyin bayatının ruhu

*...gər dişə,*
*Sər budaqdan gər düşə.*
*İgid oğul, qılınc çək,*
*Tərs gətirən gərdişə -*

bayatısında da var.

- Qəbul imtahanlarına hazırlaşanda müəllimimizin məsləhəti ilə Səfəvilər dövləti haqqında oxuduğum əsərlərin birində bir fakt da diqqətimi çəkmişdi. Bu fakt həm Xətainin fiziki baxımdan da güclü olduğunu təsdiqləyir, həm də qətiyyətli, hazırcavab olduğunu: "Şah İsmayıl Çaldıran döyüşündə topları bir-birinə bağlayan zəncirləri kəsirmiş. Bir məqamda qılınc zəncirə yox, topun lüləsinə tuş gəlir. Güclü zərbədən topun lüləsi iki yerə bölünür. Çaldıran döyüşündən bir müddət sonra Sultan Səlim Şah İsmayıl Xətaidən həmin qılıncı ona göndərməsini istəyir. Şah İsmayıl topu parçalayan qılıncını Sultan Səlimə göndərir. Sultan Səlim neçə dəfə bu qılıncla topun lüləsini ikiyə bölməyə cəhd göstərsə də, bunu edə bilmir. Ona elə gəlir ki, Şah İsmayıl başqa qılınc göndərib. Sultan Səlim Xətaiyə məktub yazır: "Sən məni aldadırsan, bu, həmin qılınc deyil." Şah İsmayıl cavab məktubunda yazır: "Qılınc həmin qılıncdı, qol o qol deyil." (əsgər Murad Musayev).

Əsgər Saleh Həsənov əsgər yoldaşının fikirlərini Azərbaycan əsgəri kimi - azərbaycançılıq ideologiyasının əsgəri kimi tamamlayır:

- Orta məktəbdə oxuyanda mənim də tarix fənninə marağım olub. Tarix müəllimimiz dövlətçilik tariximizdə Səfəvilər dövlətindən qürurla danışırdı. Səfəvilər haqqında, Şah İsmayıl Xətai haqqında əlavə kitablar da oxuyurduq. Şah İsmayıl Xətai şah idi.

Əsgər Abdul Novruzov əsgər yoldaşının sözünə qüvvət kimi deyir:

- Xətai həm şahlıq xanədanının igid sərkərdəsi olub, həm də qürurlu insan.

- Onun düşüncəsinə görə əsl igidlik döyüşlə, döyüşdə sınanılır. Sərkərdələrinin Maku yaxınlığında düşərgə salan Osmanlı ordusu üzərinə gecənin qaranlıq çağında qəfil hücum etmək təklifinə Şah İsmayıl Xətai etiraz edir: "Mən karvan basan quldur deyiləm". Osmanlı ordusunun üzərinə gecə hücum edilsəydi, bəlkə də Çaldıran döyüşündə Səfəvilər deyil, Osmanlılar məğlub olardı (əsgər İsaq Allahverdili)...

Ön xətdə "Tarix necə varsa: Şah İsmayıl Xətai" mövzusunda disput təsdiqləyir ki, əsgərlərimiz tariximizi bilir, sevir, tarixini bildiyi Vətənimizi məsuliyyətlə, sevgilərlə qoruyur.

Əsgərlərimizdən ayrılarkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu tapşırığının da böyük məsuliyyətlə yerinə yetiriləcəyinə, tariximizin, bu sıradan hərb tariximizin də əhatəli öyrədiləcəyinə əmin oluram.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

*Tarix olduğu kimi*

# Azərbaycan tarixi daha əhatəli öyrəniləcək

## Naxçıvan xanlığı

*1747-ci ildə Kəngərli tayfa başçısı Heydərqulu xan yerli feodallara arxalanaraq özünü Naxçıvanın ilk xanı elan etdi. Naxçıvanın xanlıqlar dövrü başladı. Səfəvilər dövründə Çuxursəd bəylərbəyliyinin ərazisində yaranan Naxçıvan xanlığı Zəngəzur dağlarından başlamış Araz çayı vadisinə qədər olan ərazini, Qərbi Azərbaycanın böyük bir hissəsini əhatə edirdi.*

Heydərqulu xanın vəfatından sonra xanlığı oğlanları idarə edir. 1768-ci ildən 1780-ci ilədək fasilələrlə Naxçıvan xanlığına rəhbərlik edən Şükrulla xan Kərim xan Zəndin fərmanı ilə müstəqil xan, yəni, hakim tituluna layiq görülməklə bütün Kəngərli süvarilərinə sərkərdə təyin olunur.

XVIII yüzilliyin sonlarında İrəvan xanı Hüseynəli xan, Qarabağ xanı İbrahimxəlil xan və Kartli-Kaxetiya çarı II İrakli istəyir ki, Naxçıvan xanları onların diktəsi ilə hərəkət etsin. Bunu Abbasqulu xanın simasında görürlər. Rəhim xanın oğlu Abbasqulu xan 1780-ci ildə xanlığı idarə etməyə başlayır, 1810-cu ildə İranda edam edilir.

Naxçıvan xanlığı 1747-1797-ci illərdə daxili və xarici siyasəti ilə qonşu xanlıqların rəğbətini qazanmış Heydərqulu xanın, sonralar I Kalbalı xanın hakimiyyəti dövründə siyasi diplomatiyası ilə fərqlənib. Xanlığın ərazisi, qoşunu, pul vahidi, xarici və daxili siyasəti, müstəqil dövlətə məxsus atributları olub.

Kalbalı xan Kəngərli süvarilərinin nizam-intizamına ciddi fikir verdiyindən xanlığın sərhədlərini ciddi qoruyan Kəngərli süvariləri əvvəlki şöhrətinə qayıtmışdı. Buna görə də başqa xanlıqlar Kalbalı xandan ehtiyat edirdilər. Knyaz Sisianov isə Rusiyanın hakim dairələrini, əli çatan xanlıqları xəbərdar edirdi ki, özlərini Kalbalı xandan qorusunlar.

Naxçıvan xanlığı 1787-ci ildən 1797-ci ilədək intibah dövrünü yaşayıb.

XVIII əsrin sonları, XIX əsrin əvvəllərində Naxçıvan xanlığının inzibati-ərazi bölgüsündə aparılan dəyişiklik haqqında mənbələrdə deyilir: "1797-1828-ci illərdə buranın idarə olunmasını asanlaşdırmaq məqsədilə, Cənubi Azərbaycana hakim təyin edilmiş Abbas Mirzə Naxçıvan xanlığını Naxçıvan və Ordubad dairələrinə bölmüşdü. Həmin dairələr isə öz növbəsində mahallara bölünürdü. Naxçıvan dairəsinə Əlincə, Xok və Dərələyəz mahalları daxil edilmişdi. Ordubad dairəsi isə Ordubad, Əylis, Dəstə, Bilәv və Cənnəb mahallarından ibarət olmuşdur". Naxçıvan xanlığında, Naxçıvan, Ordubad və Əylis şəhərləri mövcud idi və bu şəhərlərdə qalalar çox olduğundan oranı idarə edənlər qalabəyilər və kələntərlər adlanırdı.

1752-ci ildən sonra Naxçıvan xanlığında Naxçıvan və Ordubad şəhərləri siyasi və iqtisadi baxımdan əhəmiyyət kəsb edirdi. Xanlığın mərkəzi olan Naxçıvan şəhərində qala divarları arasında 30 minə yaxın ev olub. Şəhər xanlıqlar dövründə feodal ara müharibələri və xarici hücumlar nəticəsində ciddi dağıntılara məruz qalsa da, yenidən dirçəlib. Mənbələrdə qeyd olunur ki, "Naxçıvan çox qədim şəhərdir. Hər 200-300 ildən bir şəhər özülünə qədər dağıdılırdı. Ancaq hər dəfə yenidən bərpa edilirdi".

Təxminən 5000 il bundan əvvəl şəhər tipli yaşayış məskəninə çevrilən Naxçıvan şəhəri xanlıq dövründə inzibati cəhətdən dörd məhəlləyə (Əlixan, Şahab, Qurdlar, Sarvanlar) bölünmüşdü.

Xanlıqda iqtisadiyyatın əsasını heyvandarlıq və əkinçilik təşkil edirdi. Azərbaycan xanlıqları arasında pambıqçılıqda mühüm yeri Naxçıvan xanlığı tuturdu. Pambıq Bəyazidə, Qarsa, Tiflisə, Qarabağa ixrac edilirdi.

Bu dövrdə sənətkarlıq da özünün yüksək inkişaf mərhələsinə çatmışdı. Naxçıvan və Ordubad şəhərlərində, həmçinin kəndlərin bir çoxunda nəfis xalçalar toxunurdu. Bölgədə xalça həm şəxsi istifadə, həm də satış üçün hazırlanırdı. Xalçaçılıqla yanaşı, toxuculuq da xeyli inkişaf etmişdi. Mənbələr göstərir ki, təkcə Naxçıvan şəhərində 40 bez toxucusu olub. Sənayedə sənətkarlıq üstünlük təşkil edirdi. Şəhərlərdə və bəzi kəndlərdə külli miqdarda pambıq, ipək və yun parça istehsal edən, dəri emalı ilə məşğul olan, eləcə də zərgərlik məmulatı, mis və gil qablar hazırlayan emalatxanalar, o cümlədən silah ustaları, dərzilər, ayaqqabı ustaları, misgərlər, dəmirçilər, dulusçular fəaliyyət göstəriblər. Xanlıqda dulusçuluq xeyli inkişaf etmiş, sənətkarlığın aparıcı sahəsinə çevrilmişdi.

Sənətkarlığın, ticarətin, elm və mədəniyyətin inkişaf etdiyi Naxçıvan xanlığının həm də zəngin hərb tarixi olub. Naxçıvan uzun müddət Səfəvi dövlətinin xidmətinə "Naxçıvan süvariləri" adı altında Kəngərli tayfalarından yığma atlı dəstələr göndərib.

Naxçıvan xanlığının Kəngərli süvariləri haqqında deyilir: "Bunlar elə bil ki, qəzəblənmiş Allahın odu və ildırımlarıdırlar. Döyüş vaxtı göydən qoşunun lap mərkəzinə düşür, ölüm və dəhşət səpələyirlər". Mənbələrin verdiyi məlumata əsasən, I Kalbalı xanın hakimiyyəti dövründə Naxçıvan xanlığının qoşununda döyüşçülərin sayı 12 min nəfərdən ibarət olub. İstər xanlıq dövründə, istərsə də Naxçıvan xanlığının Rusiya tərəfindən işğalından sonra Kəngərli süvariləri əvvəlki döyüş hünərlərini qoruyub saxlayıblar.

Naxçıvan xanlığında atlı dəstənin - Kəngərli süvarilərinin vahid forma və xüsusi geyimləri olub. Atların başlarına geyindirdikləri qırmızı rəngli kaporlar onları digər döyüşçülərdən fərqləndirib.

Naxçıvan xanlığı Qarabağ, İrəvan, Xoy, Maku, Qaradağ və Gəncə xanlıqları ilə yaxın dostluq münasibətləri yaratmışdı. Naxçıvan xanlığının qonşu xanlıqlarla və Qafqazda marağı olan böyük dövlətlərlə möhkəm və qarşılıqlı münasibətlər qurmaq məsələsində ilk addımı I Kalbalı xan atmışdı. Həmin illərdə Qafqaz regionunda böyük hərbi qüvvəsi olan Rusiya ilə bu istiqamətdə danışıqlar aparmış Naxçıvan xanlığının, həm də bütün Qafqazın təhlükəsizliyinə çalışılmışdı.

O dövrdə I Kalbalı xanın çox güvəndiyi xanlıqlardan biri Qarabağ xanlığı idi. Bu isə İran şahı Ağa Məhəmməd şah Qacarı çox qəzəbləndirirdi. Ona görə də Qacar Naxçıvana göndərdiyi süvari dəstəsinə əmr vermişdi ki, xanlığı darmadağın edib əhalini İranın ucqarlarına köçürsünlər. Qacar qoşunlarına müqavimət göstərə bilməyəcəyini bilən Kalbalı xan əhalini gözlənilən bəladan qurtarmaq üçün qiymətli hədiyyələrlə şahın görüşünə gedir. Ağa Məhəmməd şah hədiyyələri alsa da, V.Zubovla məktublaşdığına və Rusiya dövlətinin himayəsinə keçmək istədiyinə görə onun gözünü çıxartdırıb məhbus kimi Tehrana göndərir. 1797-ci ildə Ağa Məhəmməd şah Qacar öldürüldükdən sonra hakimiyyətə gələn Fətəli şah I Kalbalı xanı həbsdən azad etsə də, ona Naxçıvanda yox, İrəvanda yaşamağa icazə verir.

Həm Rusiya, həm də İranın maraq dairəsində olduğundan yadellilər Naxçıvana tez-tez hücum edirdi. 1808-ci ilin oktyabrın əvvəllərində general-mayor Nebolsin 78 zabit və 3062 əsgərdən ibarət 9 batalyonla Qarabağdan Naxçıvana hücuma keçir. Qarababa döyüşlərində ruslar Abbas Mirzənin komandanlıq etdiyi İran ordusunu məğlubiyyətə uğradır. Nəticədə ruslar Naxçıvanı tutur.

Belə tarixi şəraitdə rusların İrəvan qalasına irimiqyaslı hücumu nəticəsiz qalır və ruslar ciddi itkilər verərək geri çəkilməyə məcbur olurlar. Bölgədə möhkəmlənə bilməyəcəyini görən Nebolsin Naxçıvanı tərk edir. Naxçıvanın xüsusi əhəmiyyətini nəzərə alan Abbas Mirzə Kalbalı xanın imkanlarından öz xeyrinə istifadə etmək məqsədilə, onun həbsdən azad olunması üçün Fətəli şaha müraciət edir və bu müraciət cavabsız qalmır. 1812-ci ildə Kalbalı xan yenidən Naxçıvanda hakimiyyətə gəlir.




1813-cü ildə bağlanmış Gülüstan müqaviləsindən sonra Naxçıvan xanlığı ən çətin dövrünü yaşayır. 1804-1813-cü illərdəki müharibə başa çatsa da, Rusiya hələ də Naxçıvan xanlığını işğal etmək niyyətindəydi. Bölgədə gərginlik qalmaqda idi. Rusiya imperiyası özünün nizami qoşunlarını, eləcə də kazaklardan təşkil olunmuş döyüşçü dəstələrini Qafqaz xəttində yerləşdirməkdəydi. 1816-cı ildə çar I Aleksandr A.P.Yermolovu Qafqazdakı rus qoşunlarının baş komandanı və İrana gedəcək səfirliyin başçısı təyin edir. Yermolovun 200 nəfərdən çox adamı əhatə edən missiyası Peterburqdan Tiflisə yola düşür. Heyət 1817-ci il aprelin 30-da İrəvanda qarşılanır və mayın 11-də Naxçıvana çatır. Yermolov başçılıq etdiyi dəstənin daha rahat, təhlükəsiz yolla, Xəzər dənizi sahili ilə Tehrana getmələrini təmin edə bilərdi. Amma Yermolov İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən keçib getməyə üstünlük verir. Əsas məsələ hər iki xanlığın Rusiyanın uzun illər siyasi marağında olması idi. Eyni zamanda, Yaxın Şərqdə öz müdrikliyi, igidliyi və boyun əyməzliyi ilə məşhur olan Kalbalı xan Kəngərli ilə görüş nəzərdə tutulmuşdu.

XVIII əsrin sonu XIX əsrin əvvəllərində Naxçıvan bölgəsində ictimai-siyasi vəziyyət mürəkkəb idi. Vahid dövlətin olmadığı parçalanmış Azərbaycanda feodal pərakəndəliyi hökm sürür, ayrı-ayrı xanlıqlar arasında çəkişmələr davam edirdi. Bütün bunlar isə regionu işğal etmək niyyətində olan çar Rusiyası üçün əlverişli məqam idi.

1826-cı ilin iyulunda İran ilə Rusiya arasında növbəti müharibə başladı. İmperator I Nikolay İran qoşunlarına qarşı döyüşlər üçün general Paskeviçi Qafqazda məsul vəzifəyə təyin etdi. Paskeviçin qarşısında duran əsas vəzifə qəfildən zərbə endirməklə İrəvan və Naxçıvan xanlıqlarını digər bölgələrdən təcrid etmək və xanlıqların müdafiəsini zəiflədərək işğala nail olmaq idi. Bu məqsədlə Paskeviç İrəvan və Naxçıvan arasında mövqelərini möhkəmlətdi. Qoşun iyunun 25-də Naxçıvan şəhərinin yaxınlığında dayandı. İran qoşunları Naxçıvanı tərk edən zaman şəhərin bir sıra görkəmli binalarını yandırıb dağıdaraq Araz çayı kənarında Abbasabad qalasını möhkəmləndirdilər.

İran-Rusiya danışıqları 1828-ci ilin yanvarında yenidən başlandı. Türkmənçay sülh danışıqlarında Rusiya imperiyası tərəfindən əlahiddə Qafqaz ordu komandanı İ.Paskeviç, A.Obrezkov, xarici işlər nazirliyindən A.Qriboyedov, şah hökuməti tərəfindən şahzadə Abbas Mirzə, Mənucər xan və Mirzə Əbülhəsən xan iştirak edirdilər. İran Rusiya ilə sülh danışıqlarında Naxçıvan və İrəvanın geri qaytarılmasını tələb etsə də, tezliklə bu iddiadan əl çəkir. Çar Rusiyası Türkmənçay müqaviləsinin bağlanmasından sonra ermənilərin Şimali Azərbaycan torpaqlarına, eləcə də Naxçıvana köçürülməsi prosesinə başlayır. Həmin vaxt Qriboyedov narahatlıq hissləri ilə Paskeviçə geniş bir məktub yazır. Məktubda deyilir: "Türkmənçay müqaviləsindən sonra ermənilərin Naxçıvan vilayətinə köçürülməsi düşünülməmiş bir siyasətdir. Çünki rus hökumətinin belə bir köçə razılıq verməsi Naxçıvanda yerli və köklü əhalinin haqlı etirazına səbəb olur. Bu köçəcən Naxçıvanda əvvəllər çox az miqdarda - barmaqla sayılası qədər erməni yaşayıb. Türkmənçaydan sonra İrandan köçürülən ermənilərin sayı süni surətdə Naxçıvanda yaşayan köklü müsəlman əhalisinin sayına çatdırılır". Bu köçürmə siyasətində isə çar Rusiyasının əsas məqsədi müstəmləkəçilik idarə sistemini daha da möhkəmləndirmək, əzəli Azərbaycan torpaqlarında Ermənistan dövləti yaratmaqla gələcək hərbi yürüşlərə, işğalçılıq planlarına zəmin hazırlamaq idi...

**Hazırladı:**
**baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan hərbçiləri Moskvada "Sərhədsiz dostluq" festivalında birinci yerə layiq görülüb




"Beynəlxalq Ordu Oyunları-2020" çərçivəsində Moskvada keçirilən "Sərhədsiz dostluq" Milli Mədəniyyətlər festivalının mahnı və rəqs müsabiqələrində Azərbaycanı Müdafiə Nazirliyinin Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblı təmsil edib.

Festivalda hərbçilər təmsil etdikləri ölkələrin və dünya xalqlarının mahnı və marşlarını, rəqslərini ifa ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbçilərimizin ifasında təqdim edilən milli hərbi marşlar, o cümlədən Azərbaycan xalq çalğı alətlərinin sədaları altında milli geyimlərdə rəqslər münsiflər heyətinin və tamaşaçıların rəğbətini qazanıb.

Festivalda uğurla çıxış edən Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblı "Qızıl səs" vokal nominasiyası üzrə birinci, "Rəqs ritmləri" nominasiyası üzrə isə ikinci yerə layiq görülüb.



## Tibb xidməti

# "Şəxsi heyətin sağlamlığı üçün müntəzəm tədbirlər həyata keçirilir"

*Azərbaycan Ordusunda şəxsi heyətin sağlamlığını, sağlam həyat səviyyəsini qorumaq hərbi hissələrin tibb xidmətlərinin qarşısında duran başlıca vacib məsələlərdəndir. Yeni tikilən və bərpa edilən bütün hərbi hissələrin maddi-texniki bazasının gücləndirilməsi üçün tibb müəssisələrinin də yenidən qurulması, onların müasir tibbi avadanlıqlarla təchiz edilməsi, tibbi idarəetmədə və müalicə proseslərində texnologiyanın ən son nailiyyətlərindən istifadə olunması nəzərdə tutulur və tətbiq edilir. Fəxrlə deyə bilərik ki, bu gün Azərbaycanın hərbi səhiyyəsi müasir tələblər əsasında qurulub.*

Bütün bunları nəzərə alaraq, "N" hərbi hissəsinin tibb məntəqəsinə baş çəkdik. Əsgərlərin stasionar müalicəsi üçün lazımi şəraiti olan müasir avadanlıqlarla təchiz olunan hərbi hissənin tibb məntəqəsindəki səliqə-sahman diqqətimizi cəlb etdi. Hərbi hissənin tibb məntəqəsinin həkimi leytenant Samir Əkbərovun sözlərinə görə, gün növbətçi həkimlərin və sanitar-təlimatçıların qaldırılması ilə başlayır. "Sanitar-təlimatçıların iştirakı ilə səhər düzülüşü keçirilir. Xəstələr müayinə edilir. Müayinə və müalicə işləri aparıldıqdan sonra xəstələrin ambulator qəbulu aparılır. Tibb xidməti rəisinin və ya tibb məntəqə rəisinin iştirakı ilə konsultasiyalara cəlb olunuruq. Vaxtaşırı sanitar-təlimatçılarla birlikdə əsgərlərin sağlıq problemləri, gigiyenaları ilə yerində maraqlanırıq".

"Hərbi hissə komandirinin göstərişinə əsasən, şəxsi heyətin sağlamlığının qorunması üçün tibb xidməti müntəzəm tədbirlər həyata keçirir", - deyə leytenant Samir Əkbərov söhbətinə davam etdi. - İlk işimiz gənc əsgərlərin diqqət mərkəzində saxlanılmasıdı. Son illər keçirilən tibbi tədbirlər nəticəsində xəstəliklər minimuma enib. Qurulan yüksək şəraitin, vaxtında



göstərilən tibbi müdaxilənin hesabına şəxsi heyətin arasında xəstələnmə halları az olur. Hətta aparılan profilaktik tədbirlər nəticəsində hərbi hissəmizin şəxsi heyəti arasında koronavirus pandemiyasına yoluxma halı baş verməyib.

Leytenant Samir Əkbərov onu da əlavə etdi ki, yay mövsümündə xəstəliklərə qarşı profilaktik tədbirlər həyata keçirildiyindən, əsgərlər arasında gənc əsgərlər arasında günvurma halları da qeydə alınmadı. "Bütün bunlar lazımi tədbirlərin həyata keçirilməsi, gigiyenik qaydalara əməl olunması hesabına mümkün oldu. Artıq yay mövsümü geridə qalmaq üzrədir və indi bizim qarşımızda payız mövsümünün qayğıları dayanır.

Şəxsi heyətin vaxtlı-vaxtında yuyunması, dırnaqlarının tutulması, yataq ağlarının dəyişdirilməsi, əsgər yataqxanalarının təmizliyinə nəzarət, günün nizam qaydasına uyğun olaraq səhər baxışının keçirilməsi və s. amillər xəstələnmə hallarının qarşısını alır". Həmsöhbətim onu da bildirdi ki, hərbi tibb məntəqəsində ilkin tibbi yardım göstərilməsi üçün hər cür şərait yaradılıb. Əsgərlər arasında hər hansı xəstəliyin aşkar edilməməsi üçün sanitariya maarifləndirilməsi işi daha aktiv və davamlı surətdə aparılır. Günün nizam qaydasına uyğun olaraq şəxsi heyət arasında mütləq gigiyenik və əks-epidemik tələblər gözlənilir. Bütün bunlar şəxsi heyətin, əsasən də əsgərlərin sağlamlığını təmin edir.

Zabit onu da dedi ki, il ərzində istər tibb məntəqəsi rəisləri, istər hərbi həkimlər, istərsə də sanitar-təlimatçılar üçün keçirilən toplantılar onların bilik və bacarıqlarının formalaşmasında xüsusi rol oynayır. Əldə edilən bilik və bacarıqların, uzunmüddətli təcrübənin hesabına xəstəliklərin qarşısını alır və əsgərlərin sağlamlığının qorunması işinə töhfələrini verirlər.

Əgər ordunun şəxsi heyəti sağlamdırsa, o ordunun inkişafından da danışmaq olar, gələcək qələbələrindən də. Bu səbəbdən də şəxsi heyətin sağlamlığı dövlət başçımızın və ordu rəhbərliyinin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət və ordu rəhbərliyi bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir, müasir tibb müəssisələri və tibb məntəqələri tikilərək hərbi qulluqçuların istifadəsinə verilir. Hərbi həkimlər yaradılan şəraitdən səmərəli istifadə edir, hərbi qulluqçulara nümunəvi xidmət göstərirlər. Onlar hərbi qulluqçuların qayğısına qalmaqla həm Azərbaycan Ordusuna, həm də dövlətçiliyimizə xidmət edirlər.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə daha üç terrorçu təhlükəsizlik qüvvələrinə təslim olub



Türkiyə Daxili İşlər Nazirliyinin və Jandarma Baş Komandanlığının təbliğat işləri nəticəsində ölkənin Şırnak bölgəsində daha üç terrorçu təhlükəsizlik qüvvələrinə təslim olub.

Daxili İşlər Nazirliyinin bu barədə məlumatında terrorçuların altı ilə əvvəl təşkilatın sıralarına qoşulduqları və İraqda fəaliyyət göstərdikləri müəyyən edilib.

Bununla da ilin əvvəlindən sırf təbliğat işləri nəticəsində təslim olan terrorçuların sayı 144-ə çatıb.

### Misir polisi təhlükəli yeddi cinayətkarı məhv edib



Misir polisinin Asuan vilayətində keçirdiyi iki əməliyyat nəticəsində narkotik maddələrin qanunsuz dövriyyəsi, silah satışı, quldurluq və qətl törətməkdə şübhəli bilinən 7 nəfər qatı cinayətkar məhv edilib.

Bu barədə ölkənin Daxili İşlər Nazirliyi məlumat yayıb.

Nazirliyin məlumatında bildirilib ki, ağır cinayətlərdə şübhəli bilinən, həmçinin axtarışda olan bir neçə şəxs də həbs edilib. Reydlər zamanı baş verən silahlı atışmada bir neçə cinayətkarın da yaralandığı bildirilir. Onların gizləndikləri mənzillərdən avtomat silahlar və partlayıcı maddələr aşkar edilərək götürülüb. Əməliyyatlar zamanı bir polis zabiti xəsarət alıb.

Asuan vilayəti Misirdə narkotik və silah alverçilərinin daha çox olduğu bölgə sayılır. Polis vaxtaşırı olaraq bu ərazidə reydlər və əməliyyatlar keçirir.

### Səudiyyə Ərəbistanı ordusunun yüksək rütbəli şəxsləri vəzifədən azad ediliblər



Səudiyyə Ərəbistanı Kralı Salman bin Əbdüləziz Al Səud ordunun yüksək rütbəli şəxslərinin vəzifələrindən azad edilməsi barədə sərəncam imzalayıb.

Bu barədə Kral sarayına istinadla rəsmi SPA agentliyi məlumat yayıb.

Məlumatda qeyd olunur ki, korrupsiyada ittiham edilərək vəzifəsindən azad olunanlar arasında Silahlı Qüvvələrin Baş Qərargah rəisi Fəhd bin Turki Bin Əbdüləziz də var. Ona qarşı vəzifəsindən sui-istifadə və korrupsiya ittihamları irəli sürülüb. Krallığın Korrupsiya ilə Mübarizə İdarəsi Müdafiə Nazirliyinin təqdimatı əsasında cinayət işi açıb. Bildirilir ki, ordunun rəhbərliyindəki daha dörd yüksək rütbəli şəxs barəsində də cinayət işi başlanılıb.

### ABŞ hərbi-dəniz qüvvələrinin kəşfiyyat təyyarəsi qəzaya uğrayıb



ABŞ hərbi-dəniz qüvvələrinin "E-2 Hawkeye" uzaqmənzilli radiolokasiya kəşfiyyatı təyyarəsi Virciniya ştatının sahillərində qəzaya uğrayıb, dörd nəfər ekipaj üzvü xilas ola bilib.

Bunu ABŞ hərbi-dəniz qüvvələrinin rəsmisi Patrik Qordon bildirib. O qeyd edib ki, iki pilot və ekipajın iki digər üzvü təyyarəni tərk edə bilib. "E-2 Hawkeye" Norfolk şəhərindəki (Virciniya ştatı) hərbi bazanın yaxınlığında məşq uçuşu keçirirmiş. Ekipaj üzvləri ciddi xəsarət almayıblar. Qəzanın səbəbləri araşdırılır.

**AZƏRTAC-ın materialları əsasında**

## ATƏT PA Livan ermənilərinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz köçürülməsinə reaksiya verib

ATƏT Parlament Assambleyası (PA) rəhbərliyinin sentyabrın 2-də keçirilən iclasında qurumun Büro üzvləri Ermənistanın Azərbaycanın işğal edilmiş ərazilərinə Livan ermənilərinin qanunsuz köçürməsindən və işğalçı ölkənin Azərbaycana qarşı törətdiyi təxribatların son aylarda daha da intensivləşməsindən narahatlıqlarını bildiriblər.

AZƏRTAC xəbər verir ki, ATƏT PA-nın rəsmi internet səhifəsində Assambleyanın Bürosunun onlayn iclasına dair dərc olunan mətbuat açıqlamasında təşkilatın prezidenti Georgi Tsereteli tədbirdə ATƏT regionunda davam edən münaqişələr, Dağlıq Qarabağ problemində son bir neçə ayda baş verən eskalasiya, Gürcüstan ərazisində davam edən qanunsuz sərhədləşmə prosesi və Ukrayna ərazilərinin qeyri-qanuni işğalının davam etməsi məsələlərinə toxunub.

Eyni zamanda, Büro üzvləri ATƏT PA-nın Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesinə töhfə verməsi üçün mövcud perspektivləri, ABŞ və Belarusdakı son durumu, həmçinin COVID-19 pandemiyasının yaratdığı fəsadların aradan qaldırılmasının əhəmiyyətini vurğulayıblar.

ATƏT PA-nın Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təxribatçı fəaliyyətinə münasibət bildirməsi beynəlxalq ictimaiyyətin işğalçı ölkəyə daha adekvat qiymət verməsi və ölkəmizin ədalətli mövqeyinin müdafiəsi baxımından xüsusi önəm kəsb edir.

*Ali Baş Komandan İlham Əliyevin göstərişlərinə əsasən, hərbi qulluqçuların sosial-məişət şəraiti daim diqqət mərkəzindədir. Bu məqsədlə hərbi hissələrdə müasir əsgər yataqxanaları, təbliğat materialları ilə təmin olunmuş ideoloji otaqlar, istirahət, tədris və xidməti otaqlar, silah və döyüş texnikası üçün saxlanclar, tibb məntəqələri, hamam-camaşırxanalar və qazanxanalar inşa edilir.*

*Məişət*

## Əsgər hərtərəfli qayğı ilə əhatə olunub



"N" hərbi hissəsində əsgərlərimiz üçün yaradılmış sosial-məişət şəraiti ilə tanış olduq. Hərbi hissə müasir standartlara cavab verən yataqxana, idman şəhərciyi, yeməkxana, ən son qurğu və avadanlıqlarla təchiz olunub. Bir daha əmin olduq ki, əsgərlərimizin hərbi xidməti üçün mümkün olan hər bir şərait yaradılıb.

Əsgərlərin yataq otağına daxil olduqda səliqə-sahman və təmizlik nəzərimizdən qaçmadı. Əsgərlər Faiq Rüstəmov və Mustafa Ağayev yataq otağında səliqə-sahman yaratmaqla məşğul idilər.

Əsgər M.Ağayev ali təhsillidir, Bakı Dövlət Universitetinin geologiya fakültəsinin məzunudur. Əsgər hərbi xidmətə gəldiyi gündən yaradılan şəraitdən, göstərilən diqqət və qayğıdan razı olduğunu bildirdi. "Uşaqlıqda hərbi qulluqçu görəndə tez bir zamanda hərbi xidmətə çağırılmağımı arzulayırdım. Artıq xidmət edirəm və çox xoşbəxtəm. Hərbi hissədə bizim üçün yaradılan şəraitdən razıyam. Yataq otaqlarımız böyük və geniş, çarpayılarımız isə çox rahatdır. Biz də çalışırıq ki, yataqxanada daim səliqə-sahmanı qoruyub saxlayaq. Yuxarı komandanlığa bizlər üçün yaradılan şəraitə görə minnətdarlığımı bildirirəm. Biz də verilən döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirərək onların etimadını doğruldacağıq."

Əsgər onu da qeyd etdi ki, şəxsi heyətin sağlamlığı, yataq dəstlərinin dəyişdirilməsi, paltarların yuyulması komandirlərin diqqət mərkəzindədir.

Əsgər Faiq Rüstəmov da xidmətə gəldiyi gündən şanlı ordumuzun layiqli əsgəri olmağı üçün çalışdığını bildirdi. Söhbət zamanı o bizə ideoloji və istirahət otaqları haqqında danışdı. "İdeoloji otaq genişdir. Masa və oturacaqlar ilə təmin olunmuş otağın divarlarında müxtəlif mövzulu stendlər və lövhələr asılıb. Burada: Müdafiə Nazirliyinin rəhbərliyi və onlar haqqında məlumatlar olan lövhə, hərb və dövlətçilik tariximiz haqqında stendlər var, dünya atlası və Azərbaycan Respublikasının xəritəsi asılıb. Masaların üzərində "Azərbaycan Ordusu" qəzetinin nömrələri və "Hərbi Bilik" jurnalları olur. İstirahət otağında asudə vaxtlarımızda xəbərlərə baxırıq, bəzən əsgər yoldaşlarımızla yığışıb milli kinolarımıza da baxırıq. Ondan əlavə dama və şahmat oynayırıq, hətta bəzən öz aramızda müsabiqə də qururuq. Yuxarı komandanlıq bizlər üçün hər cür şərait yaradıb. Bunun üçün onlara sonsuz dərəcə minnətdarıq."

Gördüklərimiz sübut edir ki, hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ordumuzun gücləndirilməsi deməkdir və bu ölkə rəhbərliyinin diqqət mərkəzindədir.

**Kursant
İbrahim MƏMMƏDBƏYOV**

*Hərbi texnikalar, silahlar*

## TAI Anka pilotsuz uçuş aparatı



TAI Anka pilotsuz uçuş aparatı Türkiyənin Turkish Aerospace İndustries şirkəti tərəfindən Türkiyənin Silahları Qüvvələri üçün hazırlanıb. Anka pilotsuz uçuş aparatının hazırlanması işlərinə 2004-cü ildə başlanılıb və 2010-cu ildə onun ilk uçuşu həyata keçirilib. Şirkətin verdiyi məlumata görə, onun iki modifikasiyası - Anka-A və Anka-B üzərində işlər aparılıb. Anka-A uçuş aparatı müşahidə, gözətçi və kəşfiyyat kimi tapşırıqları yerinə yetirəcək, aviabomba və raketlərlə silahlanmış Anka-B isə hücum dronu kimi istifadə ediləcək.

Çoxməqsədli pilotsuz uçuş aparatının əksər hissəsi kompozit materialdan hazırlanıb. Quyruğu V şəklində, üçqatlı itələyici vintdən ibarətdir.

Pilotsuz uçuş aparatının taktiki-texniki xüsusiyyətlərinə gəldikdə onun qanadlarının açılması 17,5 m, uzunluğu 8,6 m, yüksəkliyi 3,25 m,



havada qalma müddəti 24 saatdır. Çəkisi 1600 kiloqram, faydalı yükü isə 200 kiloqram təşkil edir. Uçuş aparatının kreyser sürəti saatda 200 kilometrə qədərdir. Hərəkət radiusu isə 200 kilometr təşkil edir. Praktiki tavanı 9 kilometrdir. Mühərrikinin gücü 155 at gücündə, STANAG 4586.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# İdman

### Bakıda açıq havada daha bir şahmat turniri keçiriləcək



Bakıda açıq havada daha bir şahmat turniri keçiriləcək.

Sentyabrın 5-də təşkil ediləcək turnir 15 sentyabr - Bilik Gününə həsr olunacaq.

Yarış Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və "İdea" şahmat klubunun birgə təşkilatçılığı ilə Şüvəlan qəsəbəsində yerləşən "Cırtdan" Respublika Uşaq-Gənclər İstirahət və Sağlamlıq Mərkəzində baş tutacaq.

### "Neftçi"nin rəqibi yoldaşlıq oyununu ləğv edib




UEFA Avropa Liqasının II təsnifat mərhələsində "Neftçi" komandası ilə qarşılaşacaq "Qalatasaray" klubu "Kasımpaşa" ilə keçirəcəyi yoldaşlıq oyununu ləğv edib.

Klubun elan etdiyi məlumatda sentyabrın 5-də oynanılması nəzərdə tutulan qarşılaşma keçirilməyəcək.

Qeyd edək ki, "Neftçi"-"Qalatasaray" oyunu sentyabrın 17-də "Bakcell Arena"da təşkil olunacaq.

### "Strict curl" üzrə ilk Azərbaycan çempionatı keçiriləcək




Sentyabrın 12-13-də Bakı Su İdmanı Sarayının ərazisində "strict curl" üzrə ilk Azərbaycan çempionatı keçiriləcək.

Bu sözləri pauerliftinq üzrə üçqat Avropa və dünya çempionu, idman ustası, Azərbaycan Strongmen Federasiyasının nəzdində "Strict curl Azərbaycan" bölməsinin rəhbəri Camal Əhmədzadə deyib.

C.Əhmədzadə qeyd edib ki, sentyabrın 11-də çəki prosesi təşkil olunacaq. Yarış Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təsdiq olunmuş karantin qaydalarına uyğun keçiriləcək. Çempionatdan əvvəl hər bir iştirakçı koronavirus testindən keçəcək. Bütün idmançılar, eləcə də məşqçilər, hakimlər və rəsmilərin hərarəti ölçüləcək, xüsusi dezinfeksiyaedici məhlullardan istifadə olunacaq. Yarış tibbi maskadan istifadə və ara məsafəsi gözlənilməklə açıq havada təşkil olunacaq.

"Yarışda idmançılar U-23 və böyüklər yaş kateqoriyalarında mübarizə aparacaqlar. Hər kateqoriya üzrə 10 çəki dərəcəsində qaliblər müəyyənləşəcək", - deyə C.Əhmədzadə əlavə edib.

### Həbib Nurməhəmmədov Castin Getji ilə döyüşə hazırlığa sentyabrın 10-da başlayacaq



Mütləq Döyüş Çempionatının (UFC) yüngül çəkidə çempionu rusiyalı Həbib Nurməhəmmədov amerikalı döyüşçü Castin Getji ilə döyüşdən əvvəl sentyabrın 10-da Dubayda təlim-məşq toplanışına başlayacaq.

Bu barədə rusiyalı idmançının məşqçisi Rizvan Maqomedov məlumat verib.

Döyüş oktyabrın 24-də Əbu-Dabidə baş tutacaq.

H.Nurməhəmmədov sonuncu döyüşünü 2019-cu ilin sentyabrında amerikalı Dastin Poryeyə qarşı keçirib və titulunu qoruyub. Yüngül çəkidə UFC-nin müvəqqəti çempionu C.Getji bu ilin mayında amerikalı Toni Ferqyusonu texniki nokautla məğlub edib.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 524
Nüsxə 3960